**Azərbaycan Prezidenti İlham Əliyevin Litvaya rəsmi səfəri**

# Vilnüs Beynəlxalq Aeroportunda qarşılanma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 21-də Litva Respublikasına rəsmi səfər edib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Vilnüs Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Litvanın ətraf mühit naziri Simonas Gentvilas və digər rəsmi şəxslər qarşıladılar.

Azərbaycan. - 2023.-23 may.- S.1.